# 12-ci AZƏRBAYCAN BEYNƏLXALQ TƏHSİL SƏRGİSİ

Oktyabrın 11-dən 13-dək Bakı Ekspo Mərkəzində 12-ci Azərbaycan Beynəlxalq Təhsil Sərgisi keçirilib. **“Uşaqların gələcəyinə sərmayə”** devizi altında təşkil edilən sərgidə çıxış edən təhsil naziri Ceyhun Bayramov bildirib ki, sərgi dünyanın 12 ölkəsindən 135 iştirakçını bir araya gətirərək 90-dan çox müxtəlif fakültələri əhatə edib. Təhsil naziri “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə artıq Dövlət Strategiyası”nın son beş ildə əldə olunmuş nailiyyətlərindən danışıb və sərgidə Təhsil Nazirliyinin geniş pavilyonda təmsil olunduğunu bildirib.




Beynəlxalq Təhsil Sərgisi aparıcı ali təhsil müəssisələrini, o cümlədən, peşə təhsili müəssisələrini və ixtisasartırma mərkəzlərini bir araya gətirib. Sərginin keçirilməsində məqsəd hər kəsə həm ixtisası, həm də təhsil müəssisəsini seçmək üçün imkan yaratmaqdan ibarət olub. Sərgidə işgüzar görüşlər, panel müzakirələr, media təqdimatları və ayrı-ayrı mövzulara dair mühazirələr təşkil olunub. Azərbaycanın əksər ali təhsil müəssisələrinin qatıldığı sərgidə iştirakçılara “Məktəbəhazırlıq”, “Olimpiadalara Hazırlıq Mərkəzi”, “Peşə Təhsili üzrə Dövlət Agentliyi”, “Təhsil” Respublika İdman Mərkəzi, “Uşaq-Gənclər İnkişaf Mərkəzi”, “SABAH” qrupları, “İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi”, “Sağlam təhsil-sağlam millət”, “Maarifçi” Tələbə Kredit Fondu, “Məktəblinin dostu”, “Modul tipli məktəblər”, “İT STEP”, “Media Mərkəz – Təhsil TV” və digər stendlər təqdim edilib.

Sevindirici haldır ki, sərgidə Peşə Təhsili üzrə Dövlət Agentliyinə də xüsusi yer ayrılmışdır. Bu da son dövrlər peşə təhsilinin Azərbaycan iqtisadiyyatına verdiyi uğurların nəticəsi kimi dəyərləndirilir. Sərgilənən stendlərdə peşə təhsili müəssisələrinin tələbə kontingentinin əl işləri və hazırladıqları məhsullar iştirakçıların marağına səbəb olub.

Sərgi geniş işgüzar proqramı ilə də fərqlənib. İştirakçılarla xaricdə təhsil məsələləri ilə məşğul olan şirkətlər arasında ikitərəfli görüşlər keçirilib. İşgüzar proqram çərçivəsində valideynlər və sərgi iştirakçıları, eləcə də xaricdə təhsil məsələləri ilə məşğul olan şirkətlər arasında “B2B” formatlı görüşlər, həmçinin “Azərbaycanda və ya xaricdə təhsil” məşhur sualı və “Ali təhsil üçün düzgün ölkə seçimi və ona aparan yol” mövzularında seminarlar təşkil olunub.

Təhsil sərgisi ilə paralel 12-ci Azərbaycan Beynəlxalq Karyera “Career-2018” sərgisi də start götürüb.